# "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatında uşaq mütaliəsi nümunələri"

Cəmiyyətin tərbiyəsində və insan baxışlarının formalaşmasında uşaq ədəbiyyatının rolu misilsizdir. Mütərəqqi xalqlar bu tərbiyə vasitəsinin rolunu nəzərə alaraq, estetik gözəlliyə, dolğun məzmuna və bədii təsir gücünə malik uşaq əsərlərinin yaranmasına xüsusi fikir vermiş, bu yolda öz xidmətlərini əsirgəməmişlər. Çünki uşaq Allahın bəşər övladına bəxş etdiyi nemətlər içərisində ən önəmlisi və əvəzsizidir, əmanətdir. Bu əmanətə riayət isə onun doğulduğu gündən fitri və sonradan qazandığı sosial çevrəsini və yaşadığı hər bir günün şərtlərini nəzərə alaraq yetişdirməkdir.

Bədii ədəbiyyatın bir qolu sayılan uşaq ədəbiyyatı möcüzəli dünyanın - uşaq aləminin sirrini-sehrini, min bir rəngini özündə yüksək sənətkarlıqla əks etdirmək qüdrətinə malikdir. Bu ədəbiyyatın öyrənilməsi tarixi qədim olmasa da, onun rəngarəng poetik nümunələri bəşər insanının sözə "ehya" verdiyi çağa təsadüf edir. Heç bir böyük sənətkar əlinə qələm alıb əsərini böyüklər, yaxud uşaqlar üçün yazacağını öncədən bilmir, bədii əsərin estetik dərki, məzmun və ideyası, problematikasının miqyası, irəli sürülən hər bir ideya yaşından aslı olmayaraq, insan övladının tərəqqisinə, ağlının və ruhunun qidalanmasına xidmət etmişdir. Dünya ədəbiyyatı xəzinəsinə əvəzsiz incilər bəxş edən Nizami Gəncəvi, Sədi Şirazi, Şarl Perro, Jül Vern, Mark Tven, Fransua Rable, Antuan de Sent Ekzüperi, Conatan Svift, Aleksandr Puşkin, Nikolay Nekrasov, Daniel Defo və b. sözün, bədii ədəbiyyatın mahiyyəti, gücü ilə yanaşı, insanın uşaq yaşlarından mənəvi-əxlaqi dəyərlərə yiyələndiyini gözəl bilmiş və bütün dövrlər üçün müasir olan əsərlər yaratmışlar. Zaman keçdikcə bu əsərlər bütün xalqlar tərəfindən sevilmiş, əbədilik qazanmışdır.

Qüdrətli tərbiyə vasitəsi olan uşaq ədəbiyyatının əsas qayəsi uşaqlara ünvanlanması, dünyanın, həyat hadisələrinin özəl bədii dərkidir. Təsadüfi deyil ki, uşaq ədəbiyyatı nümunələri yaradan şair və yazıçıların əksəriyyəti tərəqqipərvər ziyalı, müəllim, məktəblə bağlı şəxslər olmuşlar. Azərbaycan ədəbiyyatında maarifçiliyin təşəkkülü və inkişafı mərhələsi sayılan XIX əsrdə A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundzadə, S.Ə.Şirvani kimi ziyalılar tarixi hadisələrə münasibətlə yanaşı, uşaqların maariflənməsi, tərbiyəsi məsələlərinə də biganə qalmamış, istər bədii əsərlərində, istərsə də dərsliklərdə uşaqların milli ənənə, milli ruh, elmi dünyagörüşünə malik yetişdirilməsini vacib saymışlar. Məhz bu dövrdə - XIX əsrin sonu XX əsrin əvvəllərində uşaq ədəbiyyatı özünün təşkkül və coşqun tərəqqi mərhələsini yaşayır. XX yüzilin əvvəllərində M.Mahmudbəyov, R.Əfəndiyev, S.M.Qənizadə, A.Şaiq, A.O.Çernyayevski, S.A.Vəlibəyovun dərsliklərində, "Dəbistan", "Kəşkül", "Rəhbər" qəzet və jurnallarında klassik irsimizdən bədii nümunələr, dünya ədəbiyyatı nümunələri, dövrün mütərəqqi ədiblərinin uşaq əsərləri yer alır. Geniş şəkildə olmasa da, "böyük" ədəbiyyatın içində uşaq ədəbiyyatı və bu ədəbiyyatın nəzəri məzmununu zənginləşdirən, onun elmi əsaslarını hazırlayıb dəyərli nümunələrini yaradan yazıçıların həyat və yaradıcılığının orta və ali məktəblərdə tədrisinə başlanılır.

"Azərbaycan uşaq ədəbiyyatı" fənni XX əsrin 20-ci illərindən başlayaraq tədris edilir. Günümüzədək olan zaman kəsimində fənnin elmi-metodik keyfiyyyətinin yaxşılaşdırılması sahəsində çox işlər görülmüşdür; fənnin proqramı təkmilləşdirilmiş, dərsliklər, dərs vəsaitləri, metodik tövsiyələr yaranmışdır. Milli uşaq ədəbiyyatı yaratmaq uğrunda mübarizə aparan, onun dəyərli nümunələrini yaradan şair və yazıçıların yaradıcılığı, əsərləri auditoriyalarda təbliğ olunur, şüurlarda möhkəmləndirilir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru, "Xan qızı Natəvan" və "Qızıl qələm" mükafatları laureatı Pərixanım Hüseynovanın elmi-pedaqoji ictimaiyyətə təqdim etdiyi *"Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatında uşaq mütaliəsi nümunələri"* adlı dərs vəsaiti ədəbiyyat tarixinin qədim dövr mərhələsində uşaq əsərlərinin tədrisə cəlb edilməsi məqsədilə ərsəyə gəlmişdir. Uşaq ədəbiyyatı anlayışının spesifikası, yaranma tarixi və inkişaf mərhələlərinə qısaca nəzər salan müəllif haqlı olaraq uşaq ədəbiyyatının xalqın folklor yaradıcılığı və klassik yazılı ədəbiyyatla birgə inkişaf etdiyi qənaətinə gəlir. Müəllif iki böyük sənətkarın yaradıcılığına fərqli baxışda nəzər salır, özünəqədərki elmi-metodik ədəbiyyatı incələyərək seçdiyi yeni nümunələri təhlil müstəvisinə çıxarır.

Azərbaycan və dünya ədəbiyyatının tanınmış nümayəndəsi Xaqani Şirvaninin humanizm dolu əsərləri Yaxın və Orta Şərq xalqlarının böyük marağına səbəb olmuşdur. Zəngin ədəbi irsə malik şairin şahlara, xaqanlara meydan oxuyan ibrətamiz qəsidələri, fəlsəfi bədii nəsri, "Töhfətül-İraqeyn" poeması tədqiqat obyekti kimi filoloqlarla yanaşı, pedaqoqların da diqqətini həmişə cəlb etmişdir. P.Hüseynova şairin yaradıcılığında konkret bədii nümunələrin seçimi ilə halal-haram, gözütoxluq, ağlın nadanlığa, ədalətin zülmə, işığın zülmətə qalib gəldiyi hisslərinin tərənnümünü uşaq ədəbiyyatı tədrisinə gətirmişdir. İstedadı, elmi özünə qul edən bir zamanın şairi olan Xaqaninin yaradıcılığında "Savalan dağının tərifi", "Şirvanın vəsfi" şeirlərində vətən gözəlliklərinin tərənnümü, mənzum hekayələrində gözüaçıqlıq, düşüncəlilik kimi ideyalar və digər uşaq mütaliəsi nümunələrinə alim fərqli baxış bucağından yanaşır.

Bu gün milli təhsil sisteminin inkişaf dinamikası təlimin forma və məzmununa yenidən baxılmasını zəruri edir. Qloballaşma, davamlı inkişaf, təhsildə beynəlmiləlləşmə təlim fəaliyyətinin formasının dəyişməsinə nisbətdə daha sürətlə baş verir. Bu gün uşaq ədəbiyyatının istər tədqiqinə, istərsə də tədrisinə böyük ehtiyac var. Hər bir xalqın, millətin, nəhayət, dünyanın gələcəyi olan uşağı onun öz oyunları, öz sözləri, öz fikri, öz hərəkətləri, öz düşüncəsi ilə öyrənmək və böyütmək lazımdır. Dosent Pərixanım Hüseynovanın ali məktəblərin ibtidai sinif müəllimliyi və məktəbəqədər təhsilin metodikası ixtisası üçün nəzərdə tutulmuş "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatında uşaq mütaliəsi nümunələri" adlı dərs vəsaiti "Azərbaycan uşaq ədəbiyyatı" fənninin tədrisində tələbələrlə yanaşı, ümumtəhsil məktəblərinin ədəbiyyat müəllimləri, yenidənhazırlanma və ixtisasartırma kurslarının müdavimləri üçün də faydalı olacaqdır.




**Nazilə ABDULLAZADƏ,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müdiri*

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Gəncə Dövlət Universiteti

2021/2022-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə əlavə (təkrar) ali təhsil almaq istəyənlər üçün əyani və qiyabi təhsil forması üzrə sənəd qəbulu

**ELAN EDİR:**

1. Tərcümə (ingilis) (əyani)
2. Biologiya (əyani)
3. Kimya (əyani)
4. Ekologiya mühəndisliyi (əyani)
5. Kompüter elmləri (əyani)
6. Dövlət və bələdiyyə idarəetməsi (əyani)
7. Maliyyə (əyani)
8. Menecment (əyani)
9. Mühasibat (əyani)
10. Turizm bələdçisi (əyani)
11. Psixologiya (əyani)
12. İqtisadiyyat (əyani, qiyabi)
13. Biznesin idarə edilməsi (əyani, qiyabi)
14. Tarix (əyani, qiyabi)
15. Sosial iş (əyani, qiyabi)
16. Məşqçilik (əyani, qiyabi)
17. Filologiya, Azərbaycan dili və ədəbiyyatı (əyani, qiyabi)
18. Marketinq (əyani, qiyabi)
19. Turizm işinin təşkili (əyani, qiyabi)

Əlavə (təkrar) ali təhsil ödənişli formada müəssisə, təşkilat, idarə və ayrı-ayrı vətəndaşlarla Gəncə Dövlət Universiteti arasında bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. Əlavə (təkrar) ali təhsil müvafiq ixtisas üzrə bakalavriat (və ona bərabər tutulan) səviyyəsi üçün mövcud olan baza təhsil proqramlarındakı ümumi və ixtisas fənləri bölümlərini əhatə etməklə, tələbənin əvvəlcə aldığı baza təhsil proqramı ilə yeni ixtisasın baza təhsil proqramı arasındakı fərq nəzərə alınmaqla xüsusi hazırlanmış təhsil proqramları əsasında aparılır.

Əlavə (təkrar) ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *rektorun adına ərizə və müqavilə*
- *ali təhsil haqqında sənədin (diplomun və ona əlavənin) notariat qaydada təsdiq edilmiş surəti;*
- *əmək kitabçasının surəti;*
- *3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;*
- *şəxsiyyət vəsiqəsinin surəti.*

Xarici ölkələrin ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə təqdim etməlidirlər.

Əlavə (təkrar) ali təhsil almaq üçün universitetə sənəd vermiş şəxslərlə müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müqavilə yolu ilə əlavə ali təhsil almaq üçün seçdiyi ixtisas üzrə tələbələr sırasına qəbul edilirlər.

Təhsil - əyani və qiyabi formasında Azərbaycan dilindədir. Təhsil haqqı müqavilə əsasında ayrı-ayrı ixtisaslara uyğun olaraq ödənilir.

**QEYD:** Sənədlər 2021-ci il iyul ayının 15-dan sentyabr ayının 10-dək (istirahət günlərindən başqa) saat 10.00-dan 17.00-dək GDU-nun V tədris binasında Əlavə təhsil fakültəsinin dekanlığında qəbul edilir.

**Ünvan:** AZ 2000, Gəncə şəhəri,
Cavad bəy Rəfibəyli 57
Gəncə Dövlət Universiteti, V tədris binası

**Telefon:** (022) 264-24-44
(055) 650 - 20-20, (051) 765-01-51,
(055) 275-79-41

**e-mail.** zeynalov148@mail.ru
gunel_huseynova_91@inbox.ru

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Mingəçevir Dövlət Universiteti

ikinci ali təhsil üzrə sənəd qəbulu

**ELAN EDİR:**

Mingəçevir Dövlət Universitetində (MDU) 2021/2022-ci tədris ilində qəbul aparılan aşağıdakı ixtisaslar üzrə təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edilir.

| İxtisaslar | Təhsil forması | | Təhsil haqqı (manat) | |
|---|---|---|---|---|
| | | | əyani | qiyabi |
| Mühasibat | əyani | qiyabi | 1400 | 1200 |
| Maliyyə | əyani | qiyabi | 1400 | 1200 |
| İqtisadiyyat | əyani | qiyabi | 1400 | 1200 |
| Menecment | əyani | | 1400 | |
| Marketinq | əyani | qiyabi | 1400 | 1200 |
| Biznesin idarə edilməsi | əyani | | 1400 | |
| Dövlət və bələdiyyə idarəetməsi | əyani | | 1400 | |
| Turizm işinin təşkili | əyani | | 1400 | |
| Ekologiya | əyani | | 1400 | |
| Ekologiya mühəndisliyi | əyani | | 1400 | |
| Energetika mühəndisliyi | əyani | qiyabi | 1400 | 1200 |
| İnformasiya texnologiyaları | əyani | | 1400 | |
| Nəqliyyat mühəndisliyi | əyani | qiyabi | 1400 | 1200 |
| Sənaye mühəndisliyi | əyani | | 1400 | |

Sənədlərin qəbulu avqustun 31-dək onlayn formada həyata keçiriləcək. Tələb olunan sənədləri **qebul2@mdu.edu.az** mail ünvanına göndərə bilərsiniz (telefon: 0242758549).

**Tələb olunan sənədlər:**

1. *Rektorun adına ərizə;*
2. *Diplom və diploma əlavənin əsli və notarial qaydada təsdiq olunmuş surəti;*
3. *Şəxsiyyət vəsiqəsinin surəti;*
4. *3 ədəd - 3x4 sm şəkil.*

Xaricdə ali təhsil almış məzunlar diplomlarının Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin surətini təqdim etməlidir.

Təkrar ali təhsil ödənişli əsaslarla aparılır və təhsil haqqı ixtisaslara uyğun olaraq müqavilə əsasında aparılır.

**REKTORLUQ**